# Yelena QRİQORYEVA: "Azərbaycan fantastik sürətlə inkişaf edir"

**Bu günlərdə Sankt-Peterburq şəhərində keçirilmiş XXVII Beynəlxalq İqtisadi Forumda iştirak edən "Azərbaycan" qəzetinin əməkdaşı Rusiyanın "Kommersant" qəzetinin direktor müavini Yelena Qriqoryeva ilə görüşmüşdür. O, əməkdaşımızla söhbətində Azərbaycanla bağlı təəssüratlarını bölüşüb.**




- Ötən ilin dekabrında bizə Azərbaycana səfər etmək nəsib oldu. Bu səfər qısamüddətli olsa da, xoş təəssüratlarla zəngin idi. Bakının gözəlliyi bizi heyran etdi. Azərbaycan paytaxtında gördüyümüz mənzərələr, məsələn, Bakıdakı müxtəlif rəngli mərmər daşlarla bəzədilmiş divarları olan və xüsusi eskalatorlar qurulmuş piyada keçidləri və körpülər heç Moskvada da yoxdur. Bakının yeni tikililərinə, xüsusilə yelkən formasında inşa olunmuş və fantastik işıqlandırılmış modern göydələnlərə heç Birləşmiş Ərəb Əmirliklərində də rast gəlməmişəm.

Biz Bakıda həm də "Formula-1" yarışlarının keçirildiyi trasla tanış olduq. Açığını deyim, Bakı bizə Avropanın mərkəzindəki Monakonu xatırlatdı.

Onu da qeyd etməliyəm ki, fantastik sürətlə inkişaf edən şəhəriniz bizi çox isti qarşıladı. İnsanlarınız mehriban və qonaqpərvərdir. Mətbəxiniz isə çox fərqli və dadlıdır. Bu, başqa bir aləmdir.

Azərbaycana səfərinin məqsədini açıqlayan Yelena Qriqoryeva qeyd etmişdir:

"Mən Rusiya Kütləvi İnformasiya Vasitələri nümayəndə heyətinin tərkibində "Şahdağ" dağ-xizək kurortunun qış mövsümünün açılışında iştirak edirdim. Oradakı füsunkar dağlar, meşələr, xizək trasları və əyləncə yerləri, attraksionlar bizə xüsusi zövq verdi və heyrətimizə səbəb oldu.

İndi ailə üzvlərimlə birlikdə səbirsizliklə qış mövsümünü gözləyirik ki, bir daha Azərbaycana səfər edək, dənizkənarı parkı gəzək, Azərbaycan təamlarından bir daha dadaq və həm də "Şahdağ" Turizm Kompleksində xizək sürək".

***Elçin VƏLİYEV,***
***"Azərbaycan"***

*Sankt-Peterburq*

Azərbaycan.- 2024.- 13 iyun, № 124.- S.5.